**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU**

*Əlyazması hüququnda*

**KAMAL ŞİRXAN OĞLU ƏZİZOV**

# AZƏRBAYCANIN İLK TUNC DÖVRÜ ABİDƏLƏRİNİN XRONOLOGİYASI

5505.02 - Arxeologiya

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

# A V T O R E F E R A T I

**BAKI – 2017**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun "Təhsil və Beynəlxalq Əlaqələr" şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | **Maisə Nurbala qızı Rəhimova**<br>tarix üzrə elmlər doktoru, professor |
| | **Səfər Hüseyn oğlu Aşurov**<br>tarix üzrə fəlsəfə doktoru |
| **Rəsmi opponentlər:** | **Hidayət Fərrux oğlu Cəfərov**<br>tarix üzrə elmlər doktoru, professor |
| | **Müzəffər Maqsud oğlu Hüseynov**<br>tarix üzrə fəlsəfə doktoru, dosent |
| **Aparıcı müəssisə:** | **Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Ümumi tarix" kafedrası** |

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu nəzdindəki 5505.02 – Arxeologiya ixtisası üzrə tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən F/D. 01.171 saylı Dissertasiya Şurasının "30___" __06___________ 2017-ci il tarixli iclasında saat "____" keçiriləcəkdir.

**Ünvan:** AZ1143, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" ___________ 2017-ci ildə göndərilmişdir.

F/D. 01.171
Dissertasiya Şurasının
Elmi katibi:

**Bəhlul İmran oğlu İbrahimli**
tarix üzrə fəlsəfə doktoru

## DISSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Qafqazdan Suriya, Fələstinədək geniş bir coğrafi məkanda yayılmış ilk tunc dövrünün Kür-Araz mədəniyyəti abidələrinin tədqiqinə XIX əsrdən başlanılmışdır. Arxeoloji mədəniyyət kimi elmi dövriyyəyə çıxarıldıqdan sonra Kür-Araz mədəniyyətinin çoxsaylı abidələri tədqiq edilmiş, yayılma arealı, xarakterik xüsusiyyətləri, özündən əvvəlki eneolit mədəniyyəti ilə fərqli əlamətləri, lokal variantları, dövrləşmə və xronoloji çərçivəsi ilə bağlı çoxsaylı mülahizələr irəli sürülmüşdür.

XX əsrin sonlarından başlayaraq Kür-Araz mədəniyyətinin yayıldığı ərazilərdə, bu günki sərhədləri ilə ayrılan ölkələrdə arxeoloji mədəniyyətlərin tədqiqi yeni istiqamətlərdə inkişaf etməyə başladı. Əksər tədqiqatçıların birmənalı olaraq qəbul etdikləri Kür-Araz mədəniyyətinin ilkin beşiyinin Qafqazın iki böyük çayları arası olması haqqında fikirlərə yeni şərhlər verilməyə, yeni adlandırmalara, lokal variantlar arasındakı bəzi fərqlər qabardılmağa başlanmışdır. Bəzən isə hər hansı bir abidədə rast gəlinən kiçik əlamətlər qabardılaraq tarixləndirmədə yersiz "özəlləşdirmə"lərə yol verilir.

Hakim anaxaqanlıq e.ə. IV minillikdə ataxaqanlığı ilə əvəzlənmiş, məhsuldar qüvvələrin inkişafı nəticəsində sinifli cəmiyyətin yaranmasına rəvac verən ilk ictimai əmək bölgüsü baş vermiş, əkinçilik, maldarlıq, sənətkarlıq inkişaf edərək ən yüksək pilləyə çatmışdır.

Patriarxal münasibətlərin təşəkkülü və bərqərar olması, xış əkinçiliyinə keçid, metallurgiya və metalişləmənin geniş vüsət alması, habelə iqtisadi-mədəni əlaqələrin intensiv xarakter alması məhz bu dövrdə baş vermişdir. Son illər Azərbaycanın ilk tunc dövrü abidələrinin kompleks şəkildə tədqiqi həmin dövrdə cərəyan etmiş ictimai-siyasi, mədəni-iqtisadi və etnik proseslərin araşdırılmasına əlverişli şərait yaratmışdır.

Azərbaycanın ilk tunc dövrünün çoxsaylı abidələrində ayrı-ayrılıqda tədqiqatlar aparılmış, hər bir abidənin xarakterik xüsusiyyətləri, həmdövr abidələr arasındakı yeri kifayyət qədər əsaslı dəlillərlə təsdiq edilmişdir. Lakin, bütövlükdə Azərbaycan ərazisindəki Kür-Araz mədəniyyəti abidələrinin xronologiyası ümumiləşdirilmiş formada tədqiq tədqiqata cəlb edilməmişdir.

Digər tərəfdən Kür-Araz mədəniyyətinin bir sıra yaşayış məskənlərində aparılan son tədqiqatlar yeni maddi mədəniyyət

nümunələrinin əldə edilməsinə səbəb olmuşdur ki, onlar da abidələrin xronologiyasının müəyyən edilməsində və Azərbaycan Respublikası ərazisindəki abidələrin ümumi Kür-Araz mədəniyyəti abidələri sırasındakı yerinin müəyyən edilməsində həlledici rol oynaya bilərlər.

**Mövzunun öyrənilmə səviyyəsi.** Azərbaycanın ilk tunc dövrü abidələrinin öyrənilməsinin başlanğıcı XIX əsrin sonlarına təsadüf edir. Lakin ilk dəfə olaraq XIX əsrin 40-cı illərində B.A.Kuftin müxtəlif muzeylərdə və xüsusən Gürcüstan muzeyindəki materiallara istinadən " Kür-Araz eneoliti" məvhumunu elmi dövriyəyə çıxarmışdır. B.A.Kuftin ilk dəfə olaraq özünəməxsus xüsusiyyətləri olan bu mədəniyyətin arealını müəyyən etmişdir. Elə bu dövrdə B.B.Piotrovski də bu mədəniyyət barədə elmi fikirlərini irəli sürmüşdür.

XX əsrin ikinci yarısında Azərbaycanın Mingəçevir, II Kültəpə, Baba-Dərviş, Qaraköpəktəpə, Sərkərtəpə kimi ilk tunc dövrü abidələrində geniş tədqiqatlar aparılmışdır.

Kür-Araz mədəniyyətinin tarixi xronolgiyasının müəyyənləşdirilməsində I Kültəpə qazıntılarının müstəsna əhəmiyyəti vardır. O.H.Həbibullayevin "Kültəpədə arxeoloji qazintılar" adlı kitabı tədqiqatçının bir neçə il ərzində apardığı qazıntılar nəticəsində əldə edilmiş materiallar əsasında yazılmışdır. Müəllifin "Энеолит и бронза на территории Нахичеванской АССР" kitabında Naxçıvan ərazisində yaşayan tayfaların iqtisadi və ictimai həyatı, adət-ənənələri, qonşu tayfalarla, o cümlədən şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələri göstərilmişdir.

Qarabağ bolgəsinin tunc dövrü abidələri Q.S.İsmayılzadə, H.F.Cəfərov tərəfindən daha geniş tədqiq edilmişdir. Q.S.İsmayılzadənin "Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri", "Азербайджан в системе раннебронзовой культурной общности Кавказа" və H.F.Cəfərovun "Azərbaycan e.ə. IV minilliyin axırı - I minilliyin əvvəllərində"adlı monoqrafiyalarda bir sıra abidələrin dövrləşməsinə aydınlıq gətirilmişdir.

A.Q.Seyidov "Naxçıvanın Kür-Araz mədəniyyəti abidələri" və "Naxçıvan e.ə VII-II minilliklərdə" adlı monoqrafiyalarında Naxçıvanın Kür-Araz mədəniyyəti abidələrinin, yaşayış yerlərinin və qəbir abidələrinin tədqiqini verməklə, onların tikinti xüsusiyyətləri haqqında da məlumat verilmışdır. O, Kür-Araz mədəniyəti abidələrindən əldə edilmiş maddi-mədəniyyət nümunələrinin klasifikasiyasını vermış, bu abidələrin dövrləşməsi-xronologiyası məsələsi üzərində dayanmışdır.

S.H.Aşurovun “Naxçıvanın İlk Tunc dövrü keramikası” adlı kitabı Azərbaycanın ilk tunc dövrü dulusçuluq sənətini öyrənməkdə qiymətli mənbə sayıla bilər. Bu əsərdə Naxçıvanın Kür-Araz mədəniyyəti keramikasının yaranma ocaqları, yayılma arealı, forma və hazırlanma texnikası və naxışlanma üsullarına görə inkişaf mərhələləri, eləcə də qədim Azərbaycan üçün səciyyəvi olan Kür-Araz mədəniyyətinin Qafqazda və Yaxın Şərq ölkələrinə yayılması yolları göstərilmişdir.

D.L.Musayevin "Sərkərtəpə" adlı monoqrafiyasında Kür-Araz mədəniyyətinin Azərbaycanın şimal-şərq bölgələri üçün xarakterik olan lokal variantının xarakterik xüsusiyyətləri, tarixləndirilməsi ilə bağlı fikirləri də ümumi araşdırmalar üçün əhəmiyyətlidir. Azərbaycan arxeoloqlarından V.H.Əliyev, V.B.Baxşəliyev, C.Ə.Xəlilov, F.M.Muradova, T.İ.Axundov, N.Ə.Müseyibli, M.M.Hüseynov, B.M.Cəlilov və b. tədqiqatlarında, monoqrafiya və məqalələrində Kür-Araz mədəniyyətinin müxtəlif problemlərinə dair maraqlı fikirlər söyləmişlər.

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiya işində qarşıya aşağıdakı məqsədlər qoyulmuşdur:

Abidələrdən aşkar olunmuş çoxsaylı və müxtəlif tipli maddi-mədəniyyət nümunələrinin qarşılıqlı müqayisəsini aparmaq;

İlk tunc dövründə cəmiyyətin dəfn adəti və dəfn mərasimində baş vermiş dəyişiklikləri izləmək və Kür-Araz mədəniyyətinin tədqiqində mövcud olan boşluqları doldurmaq;

Azərbaycanın ilk tunc dövrü yaşayış məskənləri və qəbir abidələrindən əldə edilmiş maddi mədəniyyət nümunələrinin müqayisəli təhlili, və ilk tunc dövrü abidələrinin Cənubi Qafqaz abidələri sırasında tarixi yerinı ışıqlandırmaq;

Azərbaycanın ayrı-ayrı bölgələrinin ilk tunc dövrü arxeoloji abidələrinin xronoloji dövrləşməsini aparmaqla yanaşı, iqtisadi–mədəni əlaqələrin səviyyəsini araşdırmaqla onun inkişafını izləmək;

Azərbaycanın ilk tunc dövrünə aid olan yaşayış yerləri və qəbir abidələrindən aşkar olunan arxeoloji materailları və tədqiqatçılar tərəfindən irəli sürülən fikirləri təhlil etməklə ilk tunc dövrü abidələrinin xronoloji dövrləşməsini sistemləşdirmək;

Təsərrüfat həyatı və sənətkarlığın inkişaf səviyyəsini araşdırmaq və bununda əsasında dövrün ictimai quruluşunu və sosial münasibətləri öyrənmək;

**Tədqiqatın obyekti** Azərbaycan ərazisində bu günədək tədqiq

edilmiş Kür-Araz mədəniyyəti abidələrinin tarixləndirilməsi və xronologiyasıdır.

**Tədqiqatın predmeti** Azərbaycan ərazisində tədqiq edilmiş Kür-Araz mədəniyyəti abidələrinin tikinti xüsusiyyətləri, maddi mədəniyyət nümunələrinin xarakterik əlamətləri, qəbir abidələri və qəbir avadanlıqlarıdır.

**Tədqiqatın nəzəri metodoloji əsası.** Tədqiqat işinin yazılması zamanı Azərbaycan alimlərinin, həmçinin xarici alimlərin problemlə bağlı apardıqları araşdırma materiallarından, mövzuya dair nəşr olunmuş kitab, monoqrafiya və məqalələrdən, hesabatlardan, habelə fotomateriallardan, rəsmlərdən və başqa köməkçi vasitələrdən istifadə edilmişdir. Tədqiqatlar zamanı Azərbaycan Dövlət Tarix Muzeyinin, Arxeologiya və Etnoqrafiya muzeyinin fondunda və ekspozisiyasında saxlanılan arxeoloji materallardan da istifadə edilmişdir. Eyni zamanda müqayisəli təhlildən və müasir texnoloji yeniliklərin nəticələrindən geniş istifadə edilmişdir.

**Dissertasiya işinin elmi yeniliyi.** Azərbaycnın ilk tunc dövrü abidələrinin xronologiyası ilə bağlı bir sıra tədqiqatçılar tərəfindən ayrı-ayrı elmi fikirlər irəli sürülmüşdür. Lakin bu xronoloji ardıcıllıq tam bir toplu şəkildə öyrənilməmişdir. Məhz bu tədqiqat işində aparılmış son arxeoloji qazıntıların nəticələri və arxeoloq alimlərin irəli sürdükləri mülahizələr təhlil olunmaqla, Azərbaycanın ilk tunc dövrü abidlərinin xronologiyası ümumiləşdirilmiş formada öz əksini tapmışdır. Dissertrasiyada abidələrin qarşılıqlı müqayisəsi aparılmaqla bərabər, dövrləşmə məsələsinə xüsusi yer ayrılmış, mərhələlərə bölünməklə abidələrin xronoloji çərçivəsi dəqiqləşdirilmişdir. Kür-Araz mədəniyyətinin eneolit dövrü mədəniyyəti əsasında təşəkkül tapıb inkişaf etməsi və onun yerli zəminlə bağlı olması fikrinin yeni dəlillərlə əsaslandırılması xüsusi yer tutur.

**Tədqiqatın elmi-nəzəri və praktiki əhəmiyyəti.** Azərbaycanın ilk tunc dövrü abidələrinin xronologiyası ilə bağlı aparılan tədqiqatlar və elmi ümumiləşdirmələr Azərbaycan tarixinin öyrənilməsi üçün böyük elmi əhəmiyyətə malikdir. Dissertasiya işindən elmi-kütləvi nəşrlərin, kitabçaların, dərslik və dərs vəsaitlərinin yazılmasında, tarixi-etnoqrafik oçerklərin hazırlanmasında və Azərbaycanın qədim tarixinə dair ümumiləşdirici əsərlərin yazılmasında istifadə oluna bilər.

**Tədqiqat işinin aprobasiyası.** Tədqiqat işi AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun "Təhsil və Beynəlxalq Əlaqələr" şöbəsində

yerinə yetirilmiş, mövzu ilə əlaqədar məqalələr Azərbaycan Pespublikasının və xarici ölkələrin elmi nəşrlərində və keçirilmiş elmi konfransların materiallarında dərc edilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, dörd fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat və qəbul olunmuş ixtisarların siyahısından ibarətdir. Tədqiqat işinə cədvəllər, təqdim olunmuş arxeoloji materialların təsvirindən ibarət olan tablolar əlavə edilmişdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın girişində mövzunun aktuallığı əsaslandırılır. Mövzunun öyrənilmə səviyyəsi, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri müəyyən olunur, işin nəzəri və metodoloji əsasları, elmi yeniliyi, təcrübi əhəmiyyəti və aprobasiyası göstərilir.

**Dissertasiyanın I fəsili "Azərbaycanın ilk tunc dövrü abidələrinin tədqiqat tarixi və tarixşünaslıq" adlanır.** Əlverişli coğrafi mühitə, zəngin təbii sərvətlərə və strateji əhəmiyyətə malik olan Azərbaycan ərazisində çoxsaylı arxeoloji qazıntılar aparılmış, qiymətli maddi-mədəniyyət nümunələri əldə edilmişdir.

Azərbaycan ərazisindəki ilk tunc dövrü abidələrinin tədqiqi tarixini üç mərhələyə ayırmaq olar. Birinci mərhələ XX əsrin 40-cı illərinədək olan dövrdür. Sonralar Kür-Araz mədəniyyəti kimi səciyyələndirilən ilk tunc dövrünə aid arxeoloji materiallar Qafqazda ilk dəfə 1869-cu ildə Xaritonov tərəfindən Daşkəsən rayonunun Zağalı kəndi ətrafında aşkar edilmişdir.

XX əsrin 30-cu illərində Naxçıvan ərazisindəki Govurqala və Şortəpədən öyrənilən dövr üçün xarakterik olan keramika məmulatı əldə olunmuşdur. 1946-cı ildə S.M.Qazıyev Kür çayının sağ sahilindəki Mingəçevir qədim yaşayış yerindən ilk tunc dövrünə aid maddi qalıqlar aşkar etmişdir. XX əsrin 40-cı illərində ilk dəfə B.A.Kuftin mədəniyyətin xarakterik xüsusiyyətlərini, yayılma ərazisini müəyyənləşdirməyə çalışmış və xronoloji çərçivəsi haqqında fikirlərini söyləmişdir.

İkinci mərhələ XX əsrin 40-cı illərindən başlayaraq Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilənə qədərki dövrü əhatə edir. Məhz bu dövrdə ilk dəfə olaraq arxeoloji mədəniyyət olaraq "Kür-Araz mədəniyyəti" termini elmi dövriyyəyə daxil edilmişdir. XX əsrin 50-ci illərindən Baba-Dərviş, Mingəçevir qədim yaşayış yerlərində geniş arxeoloji qazıntılar aparılır. 50-ci illərin sonu – 60-cı illərin əvvəllərində

A.A.İessen tərəfindən Mil-Qarabağ düzündə Şahtəpə, Göytəpə, Çardaxlıtəpə, Qasımtəpə, Qaratəpə abidələri qeydə alınmışdır. A.A.İessen eyni zamanda Mil düzündə tədqiq etdiyi Üçtəpə kurqanından da Kür-Araz mədəniyyətinin son mərhələsinə aid materiallar əldə etmişdir.

1960-80-ci illərdə Qəbələ, Xaçbulaq, Qobustan, Qaraköpəktəpə və b. abidələrdə tədqiqatlar aparılmışdır. Bu mərhələdə Şimal-Şərqi Azərbaycanda, Qusar rayonunda Qəflə təpələri, Gövdişantəpə, Böyüktəpə, Kuçumxantəpə, Xaçmaz rayonunda Təpə yatağı, Sərkərtəpə, Şabran rayonunda I və II Çakkallıqtəpə yaşayış yerlərində tədqiqatlar aparılmışdır. Bu mərhələdə Naxçıvanda I və II Kültəpələrdə aparılan tədqiqatların xüsusi yeri vardır.

1965-1967-ci illərdə Kiçik Qafqazın cənub-şərq ətəklərində Qaraköpəktəpə, Xantəpə, Şomulutəpə, Günəştəpə, Üçüncü Kültəpə, Meynətəpə və Uzuntəpə abidələrində, 1960-1967-cı ildə Qazax rayonu ərazisində yerləşən Baba-Dərviş yaşayış yerində arxeoloji qazıntı işləri aparılmışdır.

H.F.Cəfərov Xaçıncay və Üçtəpə kurqanlarında, Üçoglan qədim yaşayış yerində tədqiqat isləri aparmış, bu kurqanlarda ölüyandırma və dəfn zamanı tonqalqalama mərasiminin olmasını müəyyənləşdirmişdir.

1979-cu ildə Osmanbozu sahəsində ilk tunc dövrünə aid beş kurqan tədqiq edilmışdir. 1987-ci ildə Zaqatala rayonunun Yengilan və Mosul kəndlərinin cənub sahilində, Qaraçay çayının yaxınlığında, Padartəpə yaşayış yerində arxeoloji tədqiqatlar aparılmışdır.

Müstəqillik dövründə Azərbaycanın Tunc dövrünə aid maddi-mədəniyyət abidələrində tədqiqatlar daha da genişləndirilmiş çoxsaylı monoqrafiya və məqalələr nəşr edilmişdir. Naxçıvan MR ərazisindəki Ovçulartəpəsi (2006 - 2012-ci illər), II Kültəpə (2006-cı il) Ərəbyengicə (2008-ci il), I Maxta (2008-2014-cü illər), Xələc və Şortəpə qədim yaşayış yerlərində (2010-2012-ci illər) aparılmış tədqiqatlar Kür -Araz mədəniyyətinin bir sıra problem məsələlərinin aqdınlaşdırılmasına imkan vermişdir.

2011-ci ildə Xaçmaz rayonundakı Sərkərtəpə, 2012-ci ildə Mollaburhantəpə, 2009-2011 -ci illərdə Goranboy rayonunun Tatarlı kəndi ərazisində Göl yeri qədim yaşayış məskənində, 2012-ci ildə Qaradağlı kəndi ərazisində Uzun Rəmə kurqan qəbirstanlığında, 2011-ci ildə Ağstafa rayonunda yerləşən I Həsənsu yaşayış yerində 2016-cı ildə Şabran rayonundakı Çaqqallıqtəpə abidələrində tədqiqatlar aparılmışdır.

Kür -Araz mədəniyyətinin araşdırılması istiqamətində aparılmış tədqiqatların nəticələri O.H.Həbibullayevin "Kültəpədə arxeoloji qazıntılar" və "Naxçıvan MSSR ərazisində Eneolit və Tunc dövrü", Q.S.İsmayılzadənin "Археологические исследование древнего поселения Баба-Дервиш", H.F.Cəfərovun "Azərbaycan e.ə. IV minilliyin axırı - I minilliyin əvvəllərində", F.Muradovanın "Qobustan tunc dövründə", A.Q.Seyidovun "Naxçıvanın Kür-Araz mədəniyyəti abidələri", "Naxçıvan e.ə VII-II minilliklərdə", "Naxçıvanın ilk tunc dövrü abidələri və onların dövrləşdirilməsi", S.H.Aşurovun "Naxçıvanın İlk Tunc dövrü keramikası", T.İ.Axundovun "Cənubi Qafqazın qədim kurqanları, kurqnaltı sərdabə mədəniyyəti", D.L.Musayevin "Sərkərtəpə" adlı monoqrafiyalarlnda geniş şərhini tapmışdır.

**"Azərbaycanın ilk tunc dövrü abidələri" adlı II fəsilin birinci yarımfəsli "Naxçıvanın ilk tunc dövrü abidələri" adlanır.** Kiçik Qafqazın cənub-qərb qurtaracağında yerləşən Naxçıvanın relyefi əsasən dağlıq və Araz çayı boyunca uzanan düzənlik ərazidən ibarətdir. Naxçıvanda Kür-Araz mədəniyyətinə aid I Kültəpə, II Kültəpə, Ovçular təpəsi, I Maxta, II Maxta, Sədərək, Xələc, Ərəbyengicə, Şortəpə, Aşağı Daşarx kimi qədim yaşayış yerləri aşkar olunmuşdur. Bu abidələrdən I Kültəpə, II Kültəpə, I Maxta, Ovçulartəpəsi abidəsində geniş arxeoloji qazıntılarla, digərləri isə kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmişdir.

Qəbir abidələri Şərur rayonunda Ovçulartəpəsi yaşayış yerinin cənubunda, Qarabulaq nekropolunda, Culfa rayonunun Göynük kəndi yaxınlığında qeydə alınan Xornu nekropolunda, Ordubad rayonunda, Plovdağın cənub ətəyində tədqiq edilmişdir.

Naxçıvanda başqa bir qrup ilk tunc dövrü abidələri qayaüstü təsvirlərdən ibarətdir. Bunlar Ordubad rayonu ərazisində Kiçik Qafqaz dağlarının ətəyində yerləşən Gəmiqaya abidələridir.

**2.2. Qarabağ bölgəsinin ilk tunc dövrü abidələri.** Bərdə rayonunun Şatırlı kəndinin şərqində yerləşən Şortəpə Tərtərçay hövzəsinin orta axarında tapılmış ilk tunc dövrünə aid hələlik yeganə yaşayış yeridir.

Ağcabədi rayonunun Sarıcalı kəndində Gör-təpə, Dəyirman yeri, Poladlı kəndində Binnət təpə yaşayış yeri, Qaraxanlı kəndində Qoşa-təpə /Cüttəpə/, Qarahacı yaşayış yeri, Ağdam rayonunun Göytəpə kəndinin qərb hissəsində Göytəpə, Sarıçoban kəndində I Üçoğlan, II Üçoğlan yaşayış yeri, Əhmədağalı kəndində I Vəlibəy, II Vəlibəy yaşayış yeri, Çəmən Sarıcalısı kəndinin şərqində Sarıcalıtayı təpəsi,

Çəmənli kəndində Ağtəpə yaşayış yeri, Üçoğlan kəndində Böyüktəpə yaşayış yeri ilk tunc dövrü üçün xarakterik olan materiallarla zəngindir.

Füzuli rayonu ərazisindəki Qaraköpəktəpə, Uzuntəpə, Meynətəpə, Kültəpə, Günəştəpə yaşayış yeri ilk tunc dövrü mədəni təbəqəsi ilə zəngin yaşayış məskənləridir. Qaraköpəktəpədə iri qaya daşlarından hörülmüş və yaşayış yerini əhatə edən müdafiə istehkamları öyrənilmişdir.

Mil-Qarabağ zonasının qəbir abidələri Üçtəpə, Xankəndi, Borsunlu, Xaçınçay kurqanları və digərləri ilə təmsil olunmuşdur. Qarabağın ilk tunc dövrü kurqanları dağlıq və dağətəyi zonalarda daş örtüklü, düzənlik hissədə isə torpaqdan ucadılmış örtüyə malik olmuşdular.

Mil-Qarabağ bölgəsinin yaşayış yerlərindən əldə edilmiş arxeoloji materiallar Naxçıvan tipli abidələr qrupuna daxil edilən abidələrdən məlum olanlarla eyniyyət təşkil edir

**2.3. Azərbaycanın şimal-şərq bölgələrinin ilk tunc dövrü abidələri.** Azərbaycanın şimal-şərqində yerləşən abidələr içərisində Qusar rayonunda yerləşən I Böyüktəpə, II Böyüktəpə, III Govtuşantəpə, Qəflətəpələri, Daşlıtəpə, Xaçmaz rayonunda Axtıtəpə, Həsənqala, Təpəyatağı, Mollabürhantəpə, I Filitr, Sərkərtəpə, I Çinarqala, Şabran rayonunda I, II və III Çaqqallıqtəpə, Leyli və Məcnun yaşayış yerləri, Şəkidə 1№ -li Daşuz və Küdürlü kurqanları xüsusi əhəmiyyətə malikdir.

Sərkərtəpə yaşayış yerində aparılmış arxeoloji qazıntılar nəticəsində erkən tunc dövrünə aid ziyarətgah aşkar olunmuşdur. Bu bölgənin abidələrindən əldə edilmiş materiallar bir sıra xüsusiyyətləri ilə Kür-Araz mədəniyyəti maddi mədəniyyət nümunələrini təkrar etsələr də ümumilikdə mədəniyyətin lokal variantını təmsil edirlər.

**2.4. Abşeronun ilk tunc dövrü abidələri.** Qobustanda Anazağa, Çardaqzağa, Firuz, I Dairə, Böyükdaş məskənlərində Kür-Araz mədəniyyətinə aid maddi-mədəniyyət qalıqları qarışıq təbəqələrdən əldə edilmişdir. Azərbaycanda e.ə III minilliyyə aid yeganə hasarlı abidə hələlik Dairə yaşayış yeridir.

Abşeron yarımadasında Türkan, Dübəndi, Xaşaxuna, Bəndüstü, Agdaş düzü kimi ilk tunc dövrü abidələri tədqiq edilmişdir. Bu abidələrdə mədəni təbəqə çox da qalın deyildir.

**2.5. Cənub-Şərqi Azərbaycanın ilk tunc dövrü abidələri.** Azərbaycanın cənub-şərq bölgəsinin ərazisi, Talış dağlarının ətəkləri, Lənkəran düzənliyi və Muğan düzü hələ qədim zamanlardan əkinçilik və maldarlıq məskəni oduğundan bu ərazilərdə də əhali sıx

məskunlaşmışdır. Cəlilabad rayonunda Əlikoməktəpə, Həmşəri, I Mişarçay, Adnalı, Cinlitəpə qədim yaşayış yerləri qeydə alınmış və bunlardan Əlikoməktəpədə geniş qazıntılar aparılmışdır.

Cənub-Şərqi Azərbaycanın İlk tunc dövrü Astara rayonu ərazisindəki Telmankənd kurqanları xüsusi rol oynayır. Telmankənd kurqanları e.ə.III minilliyin birinci yarısına aid edilir

**2.6. Azərbaycanın qərb bölgəsinin ilk tunc dövrü abidələri.** Azərbaycanın qərb zonasının erkən tunc dövrü yaşayış məskənləri sırasında Mincəçevir xüsusi yer tutur. Burada aşkar edilən uzunov yarımqazma binalar ilk tunc dövrünün digər abidələri üçün xarakterik deyildir. Goranboy rayonunun Tatarlı kəndi ərazisində tədqiq edilən Göl Yeri qədim yaşayış yeri çoxsaylı təsərrüfat quyularının aşkar edilməsi ilə seçilir.

Baba-Dərviş yaşayış yeri Qazax şəhərindən 2 km şimalda, Ağstafaçayın sol sahilində yerləşir. I və II yaşayış yerləri eneolit və ilk tunc dövrlərinə aiddir. Bir metrdən çox mədəni təbəqənin altında isə daha qədim eneolit dövrünün qalıqları aşkar edilmişdir.

Azərbaycanın qərb bölgəsində, Gəncəçay rayonu ərazisində İlk tunc dövrünə aid qəbir abidələrinə Y.İ.Hümmelin qazdığı 12 nömrəli, Zurnabadda təsadüfən açılan qəbir və E.Reslerin tədqiq etdiyi 13 nömrəli kurqan aiddir.

Şəmkir rayonunda "Osmanbozu" adlı yerdə qeydə alınmış kurqanlardan üçü ilk tunc dövrünə, biri son tunc, ikisi kenotaf tipli abidələr sırasına daxil edilmişdir. İ.M.Cəfərzadə tərəfindən Daşkəsən rayonu ərazindəki Xaçbulaq yaylağında ilk tunc dövrünə aid kurqan aşkar edilmişdir.

Goranboy rayonunun Tatarlı kəndi ərazisində, Göl Yeri qədim yaşayış yerində ilk tunc dövrünə aid biri düzbucaq, üçü isə quyu formada olmaqla dörd ədəd qəbir tədqiq edilmişdir. Goranboy rayonunun Səfikürd kəndinin cənub-şərqində ilk tunc dövrünə aid kurqan abidəsi aşkar edilmişdir. Daş örtüklü kurqanın kamerası sərdabə tipli olmuşdur. Sərdabədən 19 insan skeleti, 29 saxsı qab, 213 muncuq 10 ədəd iy başlığı, 1 ədəd daş alət və heyvan sümükləri aşkar olunmuşdur.

Tovuzun Aşağı Ayıblı kəndinin şimal hissəsində aşkar edilmiş Menteştəpə yaşayış yerində kütləvi dəfn adəti ilə izlənən ilk tunc dövrünə aid kurqanaltı sərdabə tipli qəbir qazılmışdır. Kömür qalıqlarının radiokarbon analizinə əsasən qəbir e.ə. IV minliyin sonu III

minillyin əvvəllərinə aid edilir.

Uzun Rəmə ilk tunc dövrü kurqan kamerasında aşkar edilmiş sümüklərin analizi göstərir ki, dəfn edilmiş insanların böyük bir qismi 15-35 yaşları arasında dünyaların dəyişmişlər. Sərdabə tam dolduqdan sonra dini adətə uyğun olaraq ona od vurulub yandırılmışdır.

Ağstafa rayonunda yerləşən I Həsənsu yaşayış yerində aparılan qazıntılar zamanı VIII kvadratda Kür-Araz mədəniyyətinə aid sallama qəbir aşkar edilmişdir. Qırmızı astarlı qab Kür-Araz mədəniyyəti, e.ə IV minilliyin ikinci yarısı –III minilliyin əvvəli üçün səciyyəvi hesab edilir.

Kəlbəcər rayonu ərazisində qeydə alınnmış ilk tunc dövrünə aid Azyurdu yaşayış yeri Azərbaycan ərazisində yüksək dağlıq zonada (dəniz səviyyəsindən 3000 m yüksəklikdə) qeydə alınmış yeganə yaşayış məskənidir.

**Dissertasiyanın üçüncü fəsli "İlk tunc dövrü arxeoloji materiallarının təsnifatı" adlanır.**

**3.1. Saxsı məmulatı.** İlk tunc dövrünün saxsı məmulatının tərkibində müxtəlif qatışıqlar-qum, parçalanmış daş və qismən saman vardır. Boz, qonur, qara və qırmızı rəngli olub bəzən parıldayanadək cilalanmışlar. Eneolit dövrünün sonlarında və ilk tunc dövrünün başlanğıcında boz rəngli, üzərləri zəif sığalanmış, bəzən gillərinin tərkibində saman qatışıqları olan qablar daha üstünlük təşkil edir. İlk tunc dövrünün son mərhələsinə doğru isə qırmızı cilalı qabların sayı artmışıdr.

İlk tunc dövrü keramikasının səciyyəvi xüsusiyyətlərindən biri də yarımşar formalı qulplara malik olmasıdır. Bu qulplar eneolit qabları üzərində rast gəlinən şiş yapmaların varisi olub onların üzərində üfüqü deşiyin açılması ilə meydana gəlmişdir. Qədim yaşayış məskənlərindən əldə olunmuş və ilk tunc dövrünün ilkin mərhələsinə aid edilən qulpların da əsasları ovalvaridir. Üçüncü mərhələdə isə qulplar yarımşar formasını almışdlar. Dördüncü mərhələdə isə qulplar tam rudiment (yəni deşiksiz) formasını almışlar.

İlk tunc dövründə saxsı qabların hazırlanma texnologiyası eneolit dövrü qablarının hazırlanma texnologiyasından o qədər də fərqlənmir. Bu dövrün qablarının böyük bir hissəsi dulus çarxından istifadə olunmadan hazırlanmışlar.

Azərbaycan ərazisində gil qabların naxışlanması eneolit dövründən başlansa da dulusçuluq sənətinin intensiv inkişafı ilk tunc dövründə daha geniş yayılmışdır. Qabların üzərini bəzəmək üçün basma, oyma və

kəsmə üsullarından istifadə edilmişdir. Basma üsulu ilə çəkilmiş naxışlar əyrixətli spiralşəkilli buruqlardan ibarətdir. Oyma naxışlar da spiralla qurtarır. Məhsuldarlıq inamı ilə bağlı olan spiral əbədi hərəkət simvolu olan günəşi əks etdirir. İlk tunc dövrünün son mərhələsində isə spiralvari naxışlar həndəsi əlavələr qəbul etmiş və özlərinin ilkin mahiyyətini itirmişlər.

Azərbaycanın ilk tunc dövrü abidələrindən əldə edilmiş çoxsaylı saxsı məmulatını forma müxtəlifliyinə görə aşağıdakı qruplara ayırmaq olar: Məişət və təsərrüfat keramikası, gil zoomorf fiqurlar, ocaq qurğuları. Keramika məmulatı içərisində təsərüffat küplərinə daha çox rast gəlinir. Onların hamısının gilinin tərkibində qum və parçalanmış daş qatışıqları vardır.

İlk tunc dövrü abidələrində daha çox əldə edilən saxsı məmulatlarından biri də müxtəlif həcmli küpələrdir. Əksəriyyətinin çiyin hissələri qabararaq tam yarımşar formasını alırlar. Onların səthi və daha çox boğazları daxildən qara, qəhvəyi və qırmızı rəngə boyanmışdır.

Məişətdə istifadə olunan saxsı məmulatı içərisində çölməklər əsas yer tutur. Çölməklərdən nəinki yemək hazırlanması məqsədilə, həmçinin ərzaq ehtiyyatlarının saxlanıldığı ehtimal edilir.

Azərbaycanın şimal-şərq bölgəsinin qədim yaşayış yerlərindən aşkar olunan çölməklərin bir qrupu qulpları olmaqla bikonik formalıdır. Ümumiyyətlə, Qafqazın şimal - şərqində yayılmış Kür Araz mədəniyyətinin lokal variantını fərqləndirən xüsusiyyətlərdən biri məhz saxsı qabların bikonik formada olmasıdır.

Baba-Dərviş yeganə abidədir ki, buradan çoxlu sayda gil nehrələr aşkar olunnmuşdur.

Mətbəx qablarının az bir qrupunu qazanlar təşkil edir. Qazanların oturacağı yastı və geniş, gövdələri azca qabarıq, boğazları nisbətən dardır. Ağız kənarları düz qazanların bir-birinin əksində iki ədəd qulpu olur.

İlk tunc dövrü kasalarının bir qrupunun oturacaqları yastı və geniş ağızlı olub yanları yuxarıya doğru genişlənir. Əksəriyyətinin ağız kənarında üçbucaq formalı çıxıntılar vardır.

Şimal-Şərqi Azərbaycanın Sərkərtəpə, Çaqqallıqtəpə, Mollaburhan və Təpəyatağı kimi qədim yaşayış məskənlərindən vazalar əldə edilmişdir.

Qapaqlar əksəriyyət təşkil etməklə, hamısının gilinin tərkibində

qum qatışığı vardır. Üzərlərindəki qulplar əsasda ovalvaridir. İlk tunc dıvrünün son mərhələsində isə qulplar tam yarımşar formalıdırlar

Kür-Araz mədəniyyəti keramikasının bir qolunu təşkil edən tavaların bəzilərinin daxilinə qara boya çəkilib və cilalanıb, oturacaqları geniş, hamar və kənarları qısadır. Azərbaycanın şimal-şərq bölgələri üçün tamamilə fərqli tava tipləri xarakterikdir.

Dövrün geniş istifadə edilmiş əşyaları sırasına mənziləri işıqlandırmaq üçün istifadə edilən yagdanlar da daxildir.

Ilk tunc dövrünə aid asmalar, təkər modelləri, gil fiqurların hamısı narın qum qatışığı olan gildən hazırlanmışdır. Gil fiqurlar içərisində öküz fiqurları üstünlük təşkil etmişlər.

Ocaq qurğularını məişətdə işlədilmə xüsusiyyətinə görə iki qrupa ayırmaq olar: Evlərin daxilində qurulmuş daimi ocaq qurğuları və model formalı, bir yedən başqa yerə aparıla bilən ocaq qurğuları

Birinci qrup ocaq qurğuları evlərin müəyyən hissəsində bilavasitə torpaqda qazılmış çalaların içərisində düzəldilirdi. İkinci tip ocaq qurğuları dairəvi manqal formasındadır. Ocaq qurğularının üçüncü qrupunu nalşəkilli formalılar təşkil edir. Ocaq qurğularının dördüncü tipini buynuzvari çıxıntıları olan dördkünc formalı qurğular təşkil edir. Beşinci tip qurğular silindrik formadadırlar.

**3.2. Metal məmulatı.** İlk tunc dövrü eneolit dövründən fərqli olaraq metalişləmə sənətinin yüksək inkişaf səviyyəsi ilə xarakterizə olunur. Metal əşyalar başlıca olaraq mis-mərgmüş qatışıqlı tuncdan hazırlanırdı, tək-tək məmulatların tərkibində qalay qatışığı vardır. Əldə olunmuş materiallar təsdiq edir ki, İlk tunc dövründə Qafqaz müstəqil və mühüm metal istehsalı mərkəzlərindən birinə çevrilmişdir.

Azərbaycanın ilk tunc dövrü abidələrindən mis-mərgümüş qarışıqlı xeyli metal əşya, metaləritmə kürəsinin və metalişləmə emalatxanasının qalıqları aşkar edilmişdir. Tapıntılar sırasına tunc oraq, bıçaq, deşici alət, biz, iynə, balta tipli alət və s. daxildir.

Balta tipli alət I Maxta qədim yaşayış yerindən aşkar olunmuşdur. I Kültəpədən tunc baltalar tökmək üçün qəlibin aşkar edilməsi bu dövrdə ikitaylı qəliblərdə tökmə texnikasının mənimsənildiyinə işarədir. Küpü borulu balta təsadüfən Masallı rayonunun Tatyan kəndi yaxınlığında tapılmışdır.

Xəncərlərin qədim nümunəsi II Kültəpənin Kür-Araz mədəniyyətinə aid olan XI tikinti qatından aşkar olunmuşdur.

I Maxta yaşayış yerindən daş qəlibin və metalın ilkin əridilməsi

üçün istifadə olunan ocağın aşkar edilməsi xüsusi əhəmiyyət kəsb edir. Qəlibin üzərində üç ədəd balta və iki ədəd digər alətin tökülməsi üçün forma qazılmışdır.

**3.2. Daş məmulatı.** İlk Tunc dövründə metal əşyaların istifadəsi daş alətlərə olan tələbatı azaltsa da, bu sahəni sıxışdırıb aradan çıxara bilməmişdir. Əvvəlki dövrlərin daş alətlərinə nisbətən ilk tunc dövründə hazırlanan daş alətlər nisbətən nəcib forması və görünüşü ilə fərqlənirlər. Daş məmulatı içərisində əmək alətləri və silahlar əsas yer tutmuşdur. Daş əmək alətləri obsidian və çaxmaqdaşından hazırlanmışdır. Taxıl emalı alətləri olan dən daşları (qayıqvarı, uzunsov və oval dən daşları) ilk tunc dövrü abidələrinin demək olar ki, hamısından aşkar olunmuşdur.

Bazalt cinsli daşlardan hazırlanmış sürtgəclər formaca iki tipə bölünür. Birinci tip sürtgəclər ovalvari, uzunsov və yastıdır, bu alətlərin hər iki yastı üzündə sürtülmə, tillərində isə döymə nəticəsində açılmış izlər var. Azərbaycanın qədim əkinçi yaşayış məskənlərindən ilk tunc dövrünə aid xeyli həvəng və dəstələr əldə edilmişdir. Dəstə tipli daş alətlərin bir qismi dördkünc və uzunsov formadadır.

Qaraköpəktəpə qədim yaşayış yerində iri heyvanları parçalamaq üçün ucu itilənmiş olan daş bıçaqlar aşkar edilmişdir. Əldə olunmuş silahlar müxtəlif daşlardan düzəldilmiş ox və nizə ucları, xəncər tiyəsi, toppuz və s. ibarətdir. Ox ucları iki tipə bölünür: ağaca taxılan hissəsi çıxıntılı olanlar və ağac taxılan hissəsi batıq olanlar. Toppuzlar şarşəkillidir. Toppuzların üzərində iki tərəfli deşik açılmışdır.

Daş alətlərin bir qrupunu da asmalar təşkil edir. Daş baltalar bazalt tipli möhkəm daşdan hazırlanıb formasına görə konusvari şəkilli olub, uc hissəsi sivri, nazik və itidir.

Azərbaycanın ilk tunc dövrü yaşayış yerlərindən əldə edilmiş oraq dişləri formalarına görə 4 qrupa bölünür: seqment, trapesiya, düzbucaqlı və üçbucaqlı formalı oraq dişləri.

Daşdan düzəldilmiş əmək alətlərinin bir qismini də toxalar təşkil edir.

**Sümük məmulatı.** İlk tunc dövründə Azərbaycan ərazisində məskunlaşmış əkinçi-maldar tayfaların məişətində sümükişləmə sənəti də geniş yayılmışdır. Sümük alətlər olan biz, əyircək, qaşov, bəzək əşyaları (asmalar, muncuqlar) xırdabuynuzlu və iribuynuzlu heyvan sümüklərindən hazırlanmışdır.

Sümük bizlər I Kültəpə, II Kültəpə, və I Maxta, Sərkərtəpə,

Çaqqallıqtəpə qədim yaşayış məskənlərindən tapılmışdır. İribuynuzlu heyvanın lülə sümüyünün oynaq hissəsi iki yerə bölündükdə təbii yarımşar forma alınır ki, onlardan da toxuculuqda istifadə etmək üçün əyircəklər hazırlanmışdır.

Sümük ox ucluqları Naxçıvanda I Kültəpə və II Kültəpə abidələrindən tapılmışdır. Qaraköpəktəpə qədim yaşayış yerindən aşkar olunan sümük ox ucu əsasən iribuynuzlu qaramalın sümüyündən düzəldilmişdir. İlk tunc dövründə dəriişləmə ilə bağlı tutarlı faktların az olmasına baxmayaraq, ibtidai insanların heyvan dərisindən müxtəlif geyim vasitəsi kimi istifadə etməsi məlumdur.

**IV Fəsil "İlk tunc dövrü abidələrinin xronologiyası və Azərbaycan abidələrinin Cənubi Qafqaz abidələri sırasında tarixi yeri" adlanır.** Özündən əvvəlki və sonrakı mədəniyyətlərdən bir sıra səciyyəvi xüsususiyyətləri ilə seçilən ilk tunc dövrü mədəniyyəti eyni zamanda bütün Qafqaz üçün yeknəsəq mədəniyyət olmuşdur. Geniş ərazini əhatə edən həmdövr abidələrin hər birində ortaq oxşarlıqlar tapmaq mümkündür. Lakin, bölgələrdən asılı olaraq abidələrin bir çoxunda fərqli xüsusiyyətlər də ortaya çıxır ki, bu da lokal variantların olmasının əlamətləridir.

B.A.Kuftin XX əsrin 30-cu illərin sonlarından başlayaraq topladığı arxeoloji materialların tədqiqi əsasında ilk tunc dövrünə aid keramikanı Kür-Araz eneoliti adlandırmış, bu mədəniyyətin Kür və Araz çayları arasında geniş yayıldığını göstərməklə bütövlükdə e.ə III minilliyə aid etmişdir. 40 - ci illərin sonunda B.B.Piatrovski Kür-Araz eneoliti haqqında öz fikirlərini bildirmiş və dövrünü müəyyənləşdirmişdir. 50-ci illərin sonu 60-ci illərin əvvələrində A.A.İyessen əvvəlki fikirlərindən fərqli olaraq, belə nəticəyə gəlmişdir ki, bu mədəniyyət eneolit dövrünə aid olmamış və bu mədəniyyəti təmsil edən metal məmulatı tərkibində mis-mərgümüş qarışığı olan tuncdan hazırlanmışdır.

Kür-Araz mədəniyyəti, Kirbet-Kerak mədəniyyəti, Erkən Transkafkasiya mədəniyyəti, Karaz mədəniyyəti, Yanık mədəniyyəti, Şimal-Şərqi Qafqaz, Vəlikənd və bir sıra terminlər işlədilməkdədir.

B.A.Kuftin bu mədəniyyətin Kür və Araz çayları arasında, O.M.Caparidze Cənubi və Mərkəzi Zaqafqaziyada, Q,S.İsmayılov Azərbaycanda, H.F.Cəfərov Qarabağda, O.H.Həbibullayev Zaqafqaziyanın cənub rayonlarında, eyni zamanda Naxçıvanda, A.Q.Seyidov isə Naxçıvan-Urmiya və Şərqi Anadolu ərazisində meydana çıxması fikrindədirlər. Ç.Barney bu mədəniyyətin yaranma

mərkəzinin Şərqi Anadolu (Elyaziq-Malatya) rayonu və Araz çayının orta axarı, T.Barton-Braun isə Azərbaycan və Şərqi Gürcüstan ərazisi olduğunu qeyd etmişdir. A.A.İessen Kültəpə abidəsinin stratiqrafiyasına əsaslanaraq, belə qənaətə gəlmişdir ki, Naxçıvan və Cənubi Azərbaycan, sonradan isə Muğan və Kiçik Qafqazın cənub-şərq əraziləri bu mədəniyyətin yarandığı ilk ocaqlardan biri olmuşdur. K.X.Kuşnaryovaya görə Qafqazın düzənlik və dağətəyi rayonları, Şimali-Qərbi İran və Şərqi Anadolu ərazisi Kür-Araz mədəniyyətinin yayıldığı ilk ərazilərdən olmuşdur. Fərqli fikirlərin olmasına baxmayaraq mədəniyyətin ilkin beşiyinin məhz Kür və Araz çayları arası olması əksər tədqiqatçılar tərəfindən qəbul edilir.

B.A.Küftin və B.B.Piotrovski bu mədəniyyəti bütünlüklə e.ə. III minilliyə aid etmişdilər. O.H.Həbibullayev əvvəlcə, bu mədəniyyətin e.ə. III minilliyn ikinci yarısını, sonra isə öz tədqiqatları əsasında e.ə. III minilliyi bütövlükdə əhatə etdiyini göstərmişdir. A.A.İessen Üçtəpə kurqanın Maykop mədəniyyəti abidələri ilə müqayisə etmiş, onlar arasında yaxınlıq olmasını göstərməklə yanaşı, həmin abidənin bütünlükdə Kür-Araz mədəniyyətinə mənsubiyyətini etiraf etmişdir. R.M.Munçayev Üçtəpə abidəsinin bəzi materiallarının Maykop keramikası ilə uyğunluğunu göstərməklə yanaşı onun e.ə. III miniliyyin axırlarına aid olduğuna tərəfdar çıxmışdır.

K.X.Kuşnaryeva və T.N.Çubinişvili Kür-Araz mədəniyyətini üç mərhələyə bölərək, birinci mərhələni e.ə. 3000-2700, ikinci mərhələni e.ə. 2700-2300, üçüncü mərhələni e.ə. 2300-2000-ci illərə aid etmişdir. O.M.Caparidze Kür-Araz mədəniyyətinin ilk mərhələsini e.ə. IV minilliyin ortaları və sonu, son mərhələsini isə e.ə. III minilliyin ortalarına aid etmişdir.

M.H.Hacıyev Dağıstanın həmdövr abidələrini üç dövrə bölərək, birinci və ikincini ilk tunc dövrünün əvvəlinə və ortasına, üçüncü dövrü isə orta tunc dövrünün başlanğıcına aid edir. O, əsasən bəzəksiz, boz və qırmızımtıl, cilalı qabları birinci - e.ə. IV minilliyin son rübünə, kobud suvaqlı, qalın divarlı, konsentrik dairəvi yapma bəzəkli qabları ikinci - e.ə. III minilliyin ortalarına, düzbucaqlı tikintilərlə müşayiət edilən və Vəlikəndin böyük katakomba qəbirləri də daxil olan üçüncü dövrü e.ə. III minilliyin son rübünə və e.ə. II minilliyin əvvəllərinə aid edir.

Q.L.Kavtaradze C14 tarixlənləndirilməsinə əsasən Kür-Araz mədəniyyətinin başlanğıc mərhələsini e.ə. IV minilliyin əvvələrinə aid edir. K.X.Kuşnaryeva son tədqiqatlarına əsasən, Kür-Araz

mədəniyyətini 4 dövrə bölür. O, birinci dövrü - e.ə. 3500-3200, ikinci dövrü-e.ə. 3200-2900, üçüncü dövrü-e.ə. 2900-2600, dördüncü dövrü-e.ə. 2600-2300 illərə aid edir.

Q.S.İsmayılov Kür-Araz mədəniyyətini üç inkişaf mərhələsinə bölmüş və buna uyğun olaraq birinci mərhələni e.ə. 3200-2800, ikincini e.ə. 2800-2600, üçüncünü isə e.ə. 2600-2300-cü illərə aid etmişdir. Tədqiqatçı bu mədəniyyətin ilk mərhələsini e.ə. IV minilliyin sonuna aid etməklə daha erkən mərhələnin ola biləcəyi ehtimalını da irəli sürmüşdür. Son illər Qafqazşünas arxeoloqlar Kür-Araz mədəniyyətini e.ə. IV minilliyin ortaları ilə e.ə. III minilliyin ortaları arasında dövrləşdirməyə meyllidirlər.

İ.H.Nərimanov qara və boz cilalı, çəhrayı astarlı, səthi daraqvarı əşya ilə işlənmiş, bəzilərində isə şabalıdı anqoblablama və ya kobud suvaq çəkilmiş keramikanın eneolit və ilk tunc dövrü arasında irsi bağlılığın olmasına kömək etdiyini bildirir.

Qafqazın heç bir abidəsində mədəni təbəqənin qalınlığı Azərbaycanda olduğu qədər (I Kültəpənin 22,2 m, o cümlədən ilk tunc dövrü - 9,5 m, II Kültəpədə 14 m, o cümlədən ilk tunc dövrü - 10 m, Qaraköpəktəpədə -7 m, I Maxta və Ovçular təpəsində - 5-6 m və s.) toplanmamışdır. Qeyd edək ki, Dağıstan ərazisində olan Kür-Araz mədəniyyəti abidələrinin mədəni təbəqəsinin qalınlığı—1,5-2 metrdən artıq deyildir. Kür-Araz mədəniyyətinin yayıldığı digər rayonların heç birində bizim abidələrdə yığıldığı qədər mədəni təbəqəyə rast gəlinmədiyindən və yuxarıda sadalanan faktlardan bir daha bu qənaətə gəlirik ki, Azərbaycan ərazisində yaşayan və oturaq həyat tərzi keçirən yerli əkinçi-maldar tayfalar Kür-Araz mədəniyyətinin yaradıcılarından olmuş, bu mədəniyyət buradan tədricən qonşu ərazilərə də yayılmışdır.

K.X.Kuşnaryeva və T.N.Çubinişvili Eneolit və Kür-Araz mədəniyyəti keramikası arasındakı fərqi iki amillə izah edirlər. Bu ya miqrasiyanını nəticəsidir və ya bu iki mədəniyyət arasında (eneolit və Kür-Araz mədəniyyətləti arasında) xronoloji baxımından fərq vardır.

Azərbaycanda Kür-Araz mədəniyyəti qəbilələri eneolit dövründə tərk edilmiş bəzi yaşayış yerləri ərazisində məskunlaşır. Naxçıvanda I Kültəpə, Ovçulartəpəsi, Qazaxda Babadərviş, Cənubi Azərbaycanda Göytəpə və Yanıqtəpə belə yaşayış yerlərindəndir. Azərbaycanın digər ilk tunc dövrü yaşayış yerləri yeni ərazilərdə salınmışdır. Bunlardan Qobustan və Mingəçevir, Füzuli rayonunda Qaraköpəktəpə və Günəştəpə, Beyləqan rayonunda Çardaxlıtəpə, Cəlilabad rayonunda

Mişarçay, Xaçmaz rayonunda Qəflətəpələri və Sərkərtəpə, Ağcabədi rayonunda Cüttəpə, Bərdə rayonunda Şortəpə, Ağdam rayonunda Qarahacı və s. yaşayış yerlərini göstərmək olar.

Kür-Araz mədəniyyətinin Eneolit mədəniyyəti ilə bağlılığı Urmiya hövzəsi və Naxçıvan bölgəsinin abidələrində xüsusilə aydın şəkildə izlənilir. Göytəpə, I Kültəpə, II Kültəpə və Ovçulartəpəsindən aşkar edilmiş keramika məmulatında Eneolit mədəniyyətinin təsiri olduqca açıq əks olunmuşdur.

I Kültəpədə aşkar olunan iskənə tipli alətin, həmçinin II Kültəpənin alt laylarından əldə edilən bıçağın bənzərləri indiyədək Cənubi Qafqaz abidələrindən tapılmamışdır. Buna görə də, I Kültəpənin alt qatlarını e.ə. IV minilliyin ikinci yarısına aid etmək olar. Bu mərhələyə, həmçinin Babadərviş və Qaraköpəktəpənin alt qatları aiddir. II Kültəpədə aşkar olunan arxeoloji materialların arxaik formasını nəzərə alaraq Kür-Araz mədəniyyətinin ilk mərhələsini e.ə.IV minilliyin əvvəlinə aid etmək mümkündür.

Naxçıvan ərazisində eneolit və ilk tunc dövrü abidəsi olan Ovçulartəpəsi abidəsində son eneolit təbəqəsindən alınmış analizin nəticəsi e.ə. 4150-3960 illəri göstərir. Bu təbəqədən altda nazik Kür-Araz mədəni təbəqəsinin təmizlənməsi mədəniyyətin əlamətlərinin artıq e.ə V minilliyin sonu - IV minilliyin əvvəllərində formalaşdığını söyləməyə imkan verir. Saxsı məmulatanın da təhlili Kür-Araz mədəniyyətinin meydana gəlməsi ilə bağlı proseslərin e.ə. IV minilliyin əvvəllərindən başlandığını deməyə əsas verir.

İkinci mərhələnin tarixləndirilməsi üçün I Kültəpə və Göytəpədən götürülmüş kömür analizlərinin mühüm əhəmiyyəti vardır. Belə ki, I Kültəpənin ikinci mərhələyə aid edilən tikinti qatları, kömür analizi ilə e.ə. 2920-90-cı ildə müəyyən edilmiş səviyyədən aşağıda yerləşir. İkinci mərhələnin tarixini bir qədər də dəqiqləşdirərək, e.ə. 3200-cü ilə aid etmək mümkündür.

I Kültəpənin 12,4 m dərinlikdə yerləşən təbəqəsi ilə II Kültəpənin 11,4 m dərinlikdə yerləşən təbəqəsi həmdövrdür. Azərbaycan ərazisində Babadərviş və Qaraköpəktəpə abidələrinin alt təbəqəsi, Qarabağın Qarahacılı, Uçoğlan, Cüttəpə, Dəyirman yeri yaşayış məskənləri, Mingəçevir yaşayış yerinin ilk tunc dövrü kompleksi, o cümlədən buradan aşkar edilən qəbirlər də arxeoloji materialların arxaik xüsusiyyətlərinə əsasən ilk tunc dövrünün əvvələrinə aid edilir. Astara rayonunda tədqiq edilən Telmankənd kurqanları da bu mərhələyə aiddir.

Son illər Kür-Araz mədəniyyəti problemlərinin tədqiqatçıları mədəniyyətin alt çərçivəsinin e.ə. IV minillikdə olduğunu birmənalı qəbul edirlər və öz fikirlərində radiokarbon analizlərin nəticələrinə əsaslanırlar. II Kültəpənin 6,80 m-lik mədəni təbəqəsinin ən alt layları e.ə. 3335-3093 illərə, I Maxtanın 2 m dərinlikdə yerləşən təbəqəsi isə radiokarbon analizlərlə e.ə. 3316-2931 illərə aid edilir. Bu analizlərin nəticələri Kür Araz mədəniyyətinin həmdövr abidələrin analizlərinin nəticələri ilə oxşarlıq təşkil edir. III Aparan, I Karnut, Talin, Şenqavit, Geghorot, Amiranis qora, Kvatsxelebi, İspani, Dzudzuanı və s. həmdövr abidələri də təqribən eyni tarixi göstərir.

Lakin nəzərə alsaq ki, radiokarbon analizlər üçün nümunələrin götürüldüyü mədəni təbəqənin materialları Kür-Araz mədəniyyətinin nisbətən inkişaf etmiş mərhələlrini əks etdirir o zaman mədəniyyətinin ilkin tarixinin daha qədim olması nəzəri cəhətdən mümkündür.

Kür-Araz mədəniyyəti abidələrindən aşkar olunan bir sıra materiallar, xüsusilə vaza tipli hündür dabanlı qablar (I Maxta, II Kültəpə), silindrik çıxıntıları olan kasa formalı qapaqlar (I Kültəpə), tokinlər (I Maxta, Çaqqallıqtəpə) Kür-Araz mədəniyyəti tayfalarının qədim Mesopotamiya ilə əlaqələrinin olduğunu göstərir.

**Nəticə.** Azərbaycan ərazisindəki ilk tunc dövrü abidələrinin öyrənilməsi göstərir ki, e.ə. IV-III minilliklərdə Kür-Araz mədəniyyətinin əhatə etmədiyi Azərbaycan torpağı yoxdur. Kür-Araz mədəniyyətinin ilkin əlamətlərini özündə əks etdirən Ovçular təpəsi, II Kültəpə, Baba Dərviş, inkişaf mərhələsini əks etdirən II Kültəpə, I Maxta, Qarabağ və Muğanın bir sıra abidələri, son mərhələsini əks etdirən I Maxta və II Kültəpənin üst təbəqələri, Baba Dərvişin üst təbəqələri və xüsusən Azərbaycanın şimal-şərq bölgələrində yayılmış lokal variant abidələri olan Sərkərtəpə, Çaqqallıqtəpə abidələri dövrün bir sıra problemlərini, həmçinin xronologiya problemlərini təhlil etməyə imkan verir. Bir sıra abidələrdə Kür Araz mədəniyyətinin final və orta tunca keçid əlamətləri nəzərə çarpsa da ümumilikdə bu problem həll edilməmişdir.

Memarlıqda, maddi mədəniyyət nümunələrində müəyyən lokal xüsusiyyətlərin olmasına baxmayaraq, qeyd etmək olar ki, Azərbaycanda məskunlaşan Kür-Araz mədəniyyəti icmaları etnik baxımdan bir-birinə yaxın olmuşdur.

İlk tunc dövründə yaşamış əhalinin sosial-iqtisadi, təsərrüfat, etnik-mədəni və ictimai həyatının müxtəlif sahələrinin inkişaf dinamikası və

dəyişikliklər haqqında təsəvvür yaradan coxlu sayda arxeoloji materallar aşkar olunmuşdur. İlk tunc dövrü yaşayış məskənləri və onlardan məlum olan avadanlıq, xüsusən kütləvi və həlledici material sayılan keramika məmulatı ərazidə məskunlaşan əhalinin həmin dövrdə Cənubi Qafqaz və Şərqi Anadoluda böyük ərazini əhatə edən Kür-Araz mədəniyyətinə mənsubiyyətini əks etdirir. Kür-Araz mədəniyyəti tayfalarının qonşu tayfalarla sıx iqtisadi və mədəni əlaqələri mövcud olmuşdur. Bu əlaqələr dinc xarakter daşımışdır.

Əldə edilmiş arxeoloji materialların, xüsusilə keramikanın bir sıra xüsusiyyətləri Kür-Araz mədəniyyətinin Azərbaycanda eneolit dövrü mədəniyyətinin təbii davamı olduğunu təsdiq edir. Kür-Araz mədəniyyəti dövrünün mənəvi mədəniyyəti plastik sənətkarlıq nümunələrində və keramika məmulatının naxışlanmasında daha geniş əks olunmuşdur. Keramika nümunələrinin üzərlərindəki təsvirlər insanların mənəvi dünyasını aydınlaşdırmağa, inanclarını müəyyən etməyə imkan verir.

Kür-Araz mədəniyyəti dulusçuluğun yüksək inkişaf səviyyəsi ilə fərqlənir. Bu dövrdə yaxşı cilalanmış, keyfiyyətli bişirilmiş, bəzən isə qara rəngli boya ilə boyanmış gil qablar geniş yayılır. Metallurgiya və metalişləmə sahəsində süni üfürmə tətbiq olunan metaləritmə kürələri və metalişləmə emalatxanaları yaranır. Sənətkarlığın inkişaf səviyyəsi, artıq onun müstəqil istehsal sahəsinə ayrılma ərəfəsində olduğunu göstərir. Metallurgiya və metal işləmədə istifadə edilən saxsı məmulatının tədqiqi sübut edir ki, ilk tunc dövründə metallurgiya xüsusi sənət sahəsinə çevrilmişdir.

Kür Araz mədəniyyəti tayfalarının dəfn abidələrində mülki və sosial bərabərsizlik, ata nəsli qurumunun cəmiyyət tarixinə inamla daxil oldugunu əks etdirir.

Bu dövrdə iqtisadiyyatın inkişafı maldarlığın əkinçilikdən ayrılmasına, əkinçilikdə qoşqu qüvvəsinin tətbiqinə, xış əkinçiyinin meydana çıxmasına və inkişafına səbəb olmuşdur. Yaşayış yerlərindəki müdafiə divarları sosial bərabərsizliyin artması və tayfalar arasında baş verən münaqişələrin kəskinləşməsi ilə bağlıdır.

Əmək məhsuldarlığının yüksəlməsi və izafi məhsulun istehsalı tayfadaxili ictimai münasibətlərə güclü təsir göstərmiş və ilk tunc dövründə ictimai əmlak bərabərsizliyi meydana çıxmışdır. Azərbaycanın ilk tunc dövrü abidələrinin tədqiqi Kür Araz mədəniyyətinin e.ə. IV minilliyin birinci yarısından e.ə. III minilliyin üçüncü rübünədək geniş bir dövrü əhatə etdiyini təsdiq edir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi məqalələrində öz əksini tapmışdır.**


1. İlk tunc dövrü abidələrinin tədqiqində yeni mərhələ. 2006-2007-ci illərdə Azərbaycanda aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunları. Bakı-2007, s. 31-33, həmmüəllif
2. Поселения Нахичевани в эпоху ранней бронзы. Журнал научных публикаций аспирантов и докторантов. Курск 2010, № 10, с. 75-80
3. İlk tunc dövründə Gəncə-Qazax zonasının arxeoloji abidələri. Pedaqoji Universitet "Xəbərləri". Humanitar elmlər bölməsi, Bakı-2011, № 1, s. 97-102
4. Qarabağ bölgəsinin ilk tunc dövrü yaşayış yerləri. Pedaqoji Universitet "Xəbərləri". Humanitar elmlər bölməsi, Bakı-2011, № 3, s.121-128
5. Naxçıvanın ilk tunc dövrü arxeoloji abidələrinin öyrənilmə tarixi. Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal. Bakı-2011, № 4, s. 208-212
6. Azərbaycanın ilk tunc dövrünün tədqiqat tarixi və tarixşünaslığı. Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, Bakı-2011, № 4, s. 223-230.
7. Классификация археологических материалов периода ранней бронзы. Вестник Чувашского Университета. Гуманитарные науки. 2013, № 2, s. 3-7
8. Naxçıvanın Kür-Araz mədəniyyəti abidələrinin xronologiyasına dair. Naxçıvan Muxtar Respublikasının 90 illiyi. Elmi konfransın materialları. Bakı- 2014, s. 52-53
9. Maxta arxeoloji ekspedisiyasının 2013-cü il tədqiqatları. Azərbaycanda 2013-cü ildə aparılmış arxeoloji və etnoqrafik çöl tədqiqatlarının yekunlarına həsr olunmuş Elmi sessiyanın materialları. Bakı - 2014, s. 31-35, həmmüəllif
10. Maxta arxeoloji ekspedisiyasının 2013-2014-cü il tədqiqatları. Azərbaycanda arxeoloji tədqiqatlar 2013-1014. Bakı - 2015, s.114-123 həmmüəllif

*Камал Ширхан оглы Азизов*

# ХРОНОЛОГИЯ ПАМЯТНИКОВ АЗЕРБАЙДЖАНА РАННЕЙ БРОНЗЫ

## РЕЗЮМЕ

Диссертация посвящена вопросам хронологии исследованных памятников куро-араксской культуры на территории Азербайджана эпохи ранней бронзы, распространенной на обширном георафическом пространстве от Кавказа до Сирии и Палестины.

Во введении обоснованы актуальность темы, проанализированы степень ее изученности и современные проблемы, определены цели и задачи.

В I главе «История исследования памятников Азербайджана эпохи ранней бронзы и историография» по этапам исследована история изучения памятников эпохи ранней бронзы на территории Азербайджана, подчеркнуты важнейшие итоги каждого этапа. Рассмотрена историография и отмечена значимость выводов исследований азербайджанских ученых в контексте общих исследований куро-араксской культуры.

II глава «Памятники Азербайджана первой эпохи бронзы» разделена на параграфы: «Памятники Нахчывана эпохи ранней бронзы», «Памятники эпохи ранней бронзы Карабахского региона», «Памятники северо-восточных регионов Азербайджана эпохи ранней бронзы», «Памятники Абшерона эпохи ранней бронзы», «Памятники юго-восточного Азербайджана эпохи ранней бронзы», «Памятники западных регионов Азербайджана эпохи ранней бронзы». В главе нашли отражение места расселения и надгробные памятники различных регионов Азербайджана эпохи ранней бронзы, определены характерные особенности каждого памятника.

В III главе «Классификация археологических материалов эпохи ранней бронзы» всесторонне исследованы артефакты памятников куро-араксской культуры Азербайджана: керамические, металлические, каменные, костяные изделия. Все артефакты классифицированы, показана динамика развития каждого из них.

В IV главе «Хронология памятников эпохи ранней бронзы и историческое место памятников Азербайджана среди памятников Южного Кавказа» определены история куро-араксской культуры в целом и хронологические рамки отдельных памятников. Научно обосновано, что куро-араксская культура охватывает обширный период, начиная с первой половины IV тысячелетия до н.э. до третьей четверти III тысячелетия до н.э.

В заключении обобщены поставленные цели и задачи, сформулированы основные научные выводы.

*Azizov Kamal Shırkhan*

# THE CHRONOLOGY OF EARLY BRONZE AGE MONUMENTS OF AZERBAİJAN

## SUMMARY

The dissertation has been devoted to the issues related to the chronology of the early Bronze Age - spread to a wide geographic area – from the Caucasus to Syria and Palestine - monuments of Kura-Araxes culture studied in the territory of Azerbaijan.

The urgency of the topic is justified in the Introduction, extent of examination and modern problems are analyzed, goals and duties are defined.

The first chapter of the dissertation is called "Research history of the Early Bronze Age monuments of Azerbaijan and historiography". In the first chapter research history of early Bronze Age monuments in the territory of Azerbaijan is analysed in phases, and important findings of each phase are highlighted. At the same time, the historiography is reviewed and the importance of the findings of Azerbaijani scientists is highlighted in the general context of the Kura-Araxes culture studies.

The first sub-chapter of the second chapter "The early Bronze Age monuments" is called "Early Bronze Age monuments of Nakhchivan", the second sub-chapter of is about "Karabakh area's early Bronze Age monuments", the third sub-chapter of is called "The Early Bronze Age monuments of the north-eastern regions of Azerbaijan", the fourth sub-chapter of is on "the early Bronze Age monuments of Absheron", the fifth sub-chapter of is called "The early Bronze Age monuments of South – Eastern Azerbaijan ", the sixth sub-chapter of is about "The early Bronze Age monuments of the western region of Azerbaijan". In this chapter settlements and graves of various regions of Azerbaijan in the early Bronze Age are indicated, the characteristic features of each monument as well as the similarities and differences between the regions are defined.

The third chapter of the dissertation is called "The classification of the early Bronze Age archaeological materials". In this chapter pottery, metal, stone, bone products extracted from the monuments of Kura-Araxes culture of Azerbaijan are being widely studied and classified and their dynamics of development are being followed.

Forth chapter is about the "Chronology of the early Bronze Age monuments and historical place of monuments of Azerbaijan among the monuments of the South Caucasus". In general, the age of the Kura-Araxes culture and chronological framework of different monuments are defined in this chapter. So far, there is a critical approach to the researches conducted till today related to the chronological framework of a period. Kura-Araxes culture covers a wide range of period from the first half of the IV millennium BC till the III quarter of the III millennium BC, and it is justified with scientific evidences.

In conclusion, summarizing the goals and duties set forth, the main scientific findings are indicated.

Əla növ kağız. Qarnitura: Times New Roman
Format 60x84 $^1/_{16}$
Тиражы 100 нцсхя

Азярбайъан МЕА-нын мятбяясиндя чап олунмушдур

Бакы, Щ.Ъавид пр. 115

**НАЦИОНАЛЬНАЯ АКЕДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ АРХЕОЛОГИИ И ЭТНОГРАФИИ**

*На правах рукописи*

**КАМАЛ ШИРХАН ОГЛЫ АЗИЗОВ**

# ХРОНОЛОГИЯ ПАМЯТНИКОВ РАННЕЙ БРОНЗЫ АЗЕРБАЙДЖАНА

5505.02 – Археология

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по истории

Баку- 2017